## Hikmətli sözlər

"Ölüb getdikdən sonra unudulmaq istəmirsənsə ya oxumağa dəyər bir şeylər yaz, ya da yazmağa dəyər bir şeylər et"

*Benjamin Franklin.*
*Dahi ABŞ fiziki, diplomatı,*
*dövlət xadimi, nəşriyyatçısı*

"Bəşəriyyətin gələcəyi elmi tərəqqinin sabahından bir o qədər də asılı deyil... İnsani əxlaqın və mənəviyyatın sabahkı mənzərəsindən asılıdır."

*Albert Eynşteyn*

"Dünya istənilən insanın tələbatını ödəməyə yetəcək qədər böyük, lakin insan nəfsini doyurmağa yetməyəcək qədər kiçikdir."

*Mahatma Qandi*

*Qoca Hörmüzdən soruşurlar:*
*-Dünyada ən müqəddəs yer haradır?*
*O, belə cavab verir:*
*-Ev tikmək üçün daş tökülən yer!*

*"Avesta"*

## Özüm haqqında

02 oktyabr 1960-cı ildə İsmayıllı rayonunun Talıstan kəndində anadan olmuşam. 1968-78-ci illərdə Talıstan kənd orta məktəbində təhsil almışam. 1978-79-cu illərdə Bakıbaştikinti İdarəsinin 2 №-li Evtikmə kombinatında işləmişəm. 1979-81-ci illərdə Ukrayna Respublikasının Vinnitsa şəhərində hərbi xidmətdə olmuşam. 1981-84-cü illərdə yenidən 2 №-li Evtikmə kombinatında əmək fəaliyyətimi dəvam etdirmişəm. 1984-1997-ci illərdə Bakıbaştikinti İdarəsinin Kadrlar şöbəsində mühəndis vəzifəsində çalışmışam. 1997-ci ildən 2000-ci ilədək "Azərsu" ASC-nin kadrlar şöbəsində mühəndis vəzifəsində çalışmışam, 2000-ci ildən Nəzarət Ölçü Cihazları üzrə mühəndis vəzifəsində çalışıram.

1982-1988-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakultəsində oxumuşam, 1988-ci ildə Tarix və ictimaiyyət müəllimi ixtisası almışam.

Milli musiqi dinləməyi, mütaliə etməyi, fiziki əməklə məşğul olmağı sevirəm.

# Müəllifdən



Nəhayət, qərar verdim ki, uzun illərdən bəri ürəyimin ən dərin qatlarından süzülüb gələn bu misraları sizinlə bölüşəm. Bu misralar, mənim müxtəlif insanlarla tanışlığımdan, müxtəlif alın yazılarından, bəzi insanların qeyri-səmimiliyinə şahid olduğumdan yaranıb. Qarşılaşdığım bir çox hadisələr məni vadar edib ki, dilimə gətirə bilmədiyim bəzi sözləri, ürəyimdən kağıza köçürüm. Kiminsə qəlbinə toxunmadan, səhvini üzünə demədən, qeyri-səmimiliklərini üzünə vurmadan hər şeyi bu insanların öz ixtiyarına buraxmaq üçün bu sətirləri yazıram.

Düzü, bu misralar ərsəyə gələnədək, sizlərə təqdim olunanadək, mən, qələm əhlinin nələr çəkdiyinin şahidi oldum. Cəmi 50 il ömür sürən hörmətli şairimiz Səməd Vurğun “Şair, nə tez qocaldın, sən” şeirini yazarkən bəlkə də onu tez qocaldan səbəblərdən biri kimi şair olmağını görürmüş.

Tam əminliklə deyim ki, şeir yazmağa insanı məcbur edən geniş anlamda qəbul edilən məhəbbətdir;

Vətənə, torpağa, valideynlərə, sevdiyin insana, övladlara və.s olan məhəbbət.

Sevgi, məhəbbət hisslərindən məhrum olanlar nəinki, nəsə yazıb-yaratmaq, heç cəmiyyət üçün faydalı insan da ola bilməzlər.

Hələ torpaqlarımız işğal altında olanda yazdıqlarım misralarda torpaqlarımızın yaxın zamanlarda işğaldan azad olunacağına inanırdım, torpaq həsrəti ilə yazılan bu misraları oxuyub, şahid olacaqsınız.

Yazdıqlarımı 10 hissəyə bölərək, bölmə-bölmə çatdırmaqda məqsədim odur ki, mənim uşaqlıq, gənclik, ahıl vaxtlarımda hansı duyğularla, necə bir həyat sevgisi ilə, necə bir peşmançılıq hissi ilə yaşadığımın şahidi olasınız.

Demək olar ki, şeirlərin əksəriyyəti ünvanlı şeirlərdir, beş dəqiqəyə, beş günə, beş aya yazılan şeirlər də var, hər birinin yaranmasını zəruri edən səbəblər olmuşdur.

Bir məqamı da qeyd edim ki, şeirin mövzusu hər an insanın yadına düşə bilər, amma şeir yazmaq üçün ən münasib yer kənd həyatı, ən münasib şərait tənhalıqdır. Elə buna görə də bu şeirlərin əksəriyyəti doğulduğum Talıstan kəndində ərsəyə gəlib.

Bəzi şeirlərdə olan eyhamlardan heç kim inciməsin, bu insanlara ürəyimdə xoş münasibətdən başqa heç nə yoxdur. Yazmaqda məqsədim həm özümə təskinlik vermək, həm də bu insanlara bacardığım qədər düz yol göstərməkdir.

Ümumiyyətlə, bütün incəsənət sahələrinin ən ümdə vəzifəsi insanları nümunəvi həyat şəraitinə alışdırmaq, insanlarda mənəvi saflıq hissi formalaşdırmaqdır. Hamımız oxuduqlarımızdan, gördüklərimizdən nəticə çıxararaq cəmiyyət üçün yararlı bir vətəndaş olmuşuq.

Hər bir ziyalının, hər bir yaradıcı insanın mütləq özünə məxsus kiçik də olsa bir şəxsi kitabxanası olur. Boş vaxtlarında gününü kitablar arasında keçirməkdən yaxşı nə ola bilər. Yaradıcı insanda kitaba olan ehtiyac ən zəruri qida məhsuluna olan ehtiyacdan üstün olmalıdır. Kitablarda məlumatların daha dəqiq olduğuna əminliklə inanıram.

İnsanlara sözüm çoxdur, amma vaxtınızı çox almaq istəmirəm, bu balaca kitabı varaqlamaq yox, orda nəsə tapmaq arzulayıram sizlərə.

Mən indiyədək kitablardan götürdüklərimlə yaşayıram desəm, yanılmaram. Bir daha hamınıza xoş günlər arzulayıram. Eviniz Kitabsız qalmasın.

*Süd verərkən doğma anam*
*belə demişdir mənə:*
*"Səni qurban bəsləyirəm*
*Türk yurduna, Vətənə!*
*Bu dünyada azadlığı*
*şan-şöhrətdən üstün tut,*
*Alçaqlığı, yaltaqlığı,*
*rəzilliyi sən unut!*
*Sənin sevgin vətən olsun,*
*Millət olsun, Mən olum,*
*Südüm sənə haram olsun*
*xəyanət etsən, oğlum!"*

*Əhməd Cavad*
*Gəncə, fevral 1937*

Bu kitabın çapa hazırlanmasında mənə ən böyük dəstək verən, sözün həqiqi mənasında, hər bir misranın zərgər dəqiqliyi ilə düzülməsində köməyini əsirgəməyən dostumuz Orxan Mustafaoğluna dərin təşəkkürümü bildirirəm. Bir ziyalı kimi, gənc nəslin təlim-tərbiyəsində hər zaman əmək sərf edən, cəmiyyətdəki davranışları ilə hər kəsə nümunə olan Orxan dostumuza həyat yollarında yeni-yeni uğurlar arzulamaqla bir daha xeyirxah əməlinə görə çox sağ ol deyirəm.

## I Ön söz

Fürsənd Mürvətzadənin şeirlərini oxuyanda böyük Səməd Vurğunun "Şeirli Şirvan..." misrası yadıma düşdü. Nahaq deyil ki, Şirvana şairlər yurdu deyirlər. Burada sadə vətəndaşlardan tutmuş qız-qadınlarımıza qədər şair ruhlu insanlar yaşayır. Fürsənd bəy də Şirvanda – axarlı-baxarlı İsmayıllıda doğulub, boya-başa çatıb. Bu meyardan yanaşanda Fürsənd bəyin şeir yazmasında bir qanunauyğunluq görürük. Onun şeirləri həyata, təbiətə və insanlara sadə baxışından yaranıb. Bu şeirlərdə fəlsəfi mənalar axtarmaq da vacib deyil. Vacib odur ki, qələmiylə, sözüylə öz duyğu-düşüncələrini əks etdirə bilir.

Bu şeirlər bizə onu deməyə əsas verir ki, Fürsənd bəy ilk gənclik illərindən ədəbiyyata gəlsəydi, indi sayılıb-seçilən qələm adamlarından biri idi. Axı yaradıcılıq bir günün, bir ilin məhsulu olmur, on illərlə oxuyub-öyrənib-yazıb-yaratmaq tələb edir. Düzdü, Dağıstanın ləzgi şairi Süleyman Stallı ilk şeirini 60 yaşında Bakıda fəhlə işləyərkən yazmışdı. Sonralar elə püxtələşmişdi ki, böyük ədib M.Qorki ona "XX əsrin Homeri" adını qoymuşdu. Əgər Fürsənd Mürvətzadə bütünlüklə öz həyatını şeirə-sənətə həsr eləmiş olsa, inanıram ki, daha böyük uğurlar qazana bilər. Bu gün onun şeir yazması da həyatında bir uğurdur, desək, həqiqət olar. Biz də ona uğur olsun deyirik.

***Qəşəm İsabəyli***

*Yazıçı, Beynəlxalq Andersen* Şərəf *Diplomu laureatı*

*26 yanvar 2025-ci il*

## II Ön söz

*Kitab bir nəslin sonrakı nəslə*
ən *böyük mənəvi vəsiyyətidir.*

*V.Q Belinski*

## Gözəllik və sevgi bulağı

Kitab barədə söz düşən kimi dərin fikrə dalıram, fəlsəfi düşüncələr qanadında gedirəm dünyanın lap dərinliklərinə, ənginliklərinə... Sözdə nə qədər hikmət varmış... Bəşər tarixinin ən böyük kəşfi olan kitabda nə qədər sehr və möcüzə varmış...

Dahilər gözəl deyib: “Milləti millət edən onun yaddaşıdır”. Bu bəşər tarixinin sübut etdiyi bir aksiomdur. Yaddaşın kütləşməməsi üçün tariix vərəqlənməli, həqiqi tarix öyrənilməlidir. Saxta tarix saxta pul kimidir, milləti müflisləşməyə aparır. Dünya şöhrətli alimimiz akademik Azad Mirzəcanzadə (fəxr edirəm ki, bu dahi şəxsiyyət haqqında kitabın müəllifiyəm) deyirdi ki “Millət fəxarət hissi üstündə bərqərar olur. Bizim də millət olaraq fəxr etməyə nəyimiz və kimimiz var… və çoxdur. Onlar tariximizin ən zəngin və mürəkkəb hissəsidir, onları əvvəlcə özümüz tanımalıyıq ki, təbliğ etmək iqtidarında olaq, özümüz tanımaqdan əlavə, şəxsiyyətlərimizi daha çox dünyaya tanıtmalıyıq”.

Tarix və Yaddaş isə millət, xalq, insan və əbədiyyət qarşısında ən müqəddəs vəzifədir ki, bunu da Məktəb yerinə yetirir. Məktəb məbəddir, xalqın tarixini, adət-ənənələrini, psixologiyasını, ən əsası el-obanın, xalqın Ruhunu yaşadır, parta arxasında öyrənib yetişən yeni nəslin timsalında Tarixlə Gələcək arasında Yaddaş adlı etibarlı

Körpü yaradır. Bu Körpünün etibarlılığından, dayanıqlılığından asılıdır bütöv bir nəslin Vətən adlı müqəddəs məkana, onun keşməkeşli tarixinə, qan yaddaşına münasibəti. Vətənin də taleyi bu münasibətdən asılıdır. Deməli, Vətən taleyinin təməli məhz məktəbdə qoyulur.

Məktəb öz müəllimlərilə, ənənələrilə güclüdür və tanınır. Hər birimiz məktəb adlı bir ocağın yetirmələriyik, övladlarıyıq və ordan qazandığımız, əxz etdiklərimizi bir ömür boyu yaşadırıq taleyimizdə. Deməli, ömür yolumuz da, taleyimiz də, yaradıcılığımız da, kitablarımız da Məktəbin davamıdır…

İlk poetik övladı - ilk kitabıyla oxucuların görüşünə gələn Fürsənd Mürvətzadə də zəngin və maraqlı tarixi olan, dahi şairimiz Səməd Vurğunun poeması ilə dillər əzbəri olmuş cənnət İsmayıllının Talıstan kəndinin, onun şöhrətli məktəbinin övladıdır. Bu məktəb divarları arasında böyüyüb dünyaya fərqli incə sənət duyumuyla formalaşıb. BDU-nun tarix fakültəsini bitirib, ancaq həyat ona tamam fərqli tale sürpriz edib, başqa sahələrdə peşəkar mütəxəssis kimi çalışıb və nüfuz qazanıb. Daha çox su təsərrüfatı sahəsində çalışıb. Su aydınlıqdır, su- həyat deməkdir. Su həm də şəffaflığı, duruluğu və həyati əhəmiyyəti ilə əsl poeziya mənbəyi imiş.

Fürsəndin poetik ruhunda doğma yurda, torpağa, onun maraqlı tarixinə, füsünkar gözəlliyinə, zəhmətsevər, mübariz insanlarına böyük sevgi ana xətt təşkil edir desəm yanılmaram. Bu istedadlı insan dogma, bərəkətli torpaqdan yoğrulub, o torpağın halal övladıdır, o zəngin və keşməkeşli tarixin mübariz yetirməsidir.

Şairin boya-başa çatdığı Talıstan doğma Azərbaycanımızın, onun dilbər guşəsi olan İsmayıllının ən ulu yaşayış